Hürriyyət

Müəllif

SİZİN ÜÇÜN QƏZET

№93 (3193) 23 Noyabr / 2021-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



Unudulmaq böyük dərddir.
Hegel

*Mənəviyyat*

# Yaşayan dostlarımın xatirəsinə...

**Başlıq oxucuları çaşdırmasın, atalar deyiblər: Diriyə də rəhmət düşür. Görəsən, müdrik kəlamlar birmənalıdırmı? Bəlkə itirilmiş dostlar üçündür? Yoxsa bir şəhərdə, bir rayonda, bir kənddə yaşayanlara aid deyil?**

İnsan dünyaya doğulanda, qəribədir, gözünü açmamış anasının döşünü (əmcəyini) tapır, nazik dodaqlarını südə bulaşdırır. Ağlı kəsəndə dost yanına qaçır. Yaşlaşanda soyuq məzara tələsir. Birincini xatırlayıram, ana südü qanıma axıb, bədənimi ərsəyə gətirib, ruh - can bağışlayıb. Dünyaya baxmaq, insanların yaxşısını və pisini tanımaq üçün gözlərimə işıq verib ki, seçimimdə yanılmayım. Qulaq yaradıb ki, xoş və ikrahlı sözləri eşidim, birini o birindən ayırım. Dil verib ki, insanlarla ünsiyyət qurum, halından xəbərdar olum, ən ağır saatlarında, günlərində dərdinə şərik çıxım. Bu isə dəyanətini, canıyananlığını və keçmiş günlərini unutmayan kişi dostlara xas xasiyyətdir. Amma qadın rəfiqələrim var bəzi dostlarımdan qat-qat etibarlıdır, qayğılarından baş açmamasına baxmayaraq əlini telefona uzadır, nömrəni yığır. Sonuncu nömrə ünsiyyətin - tanışlığın ilk sədası kimi səslənir.

Mən pedaqoji fəaliyyətimdə dost axtarışında olmuşam, qəribə gəlməsin: yuxarı sinif şagirdlərimlə ünsiyyət bağlamaqdan çəkinməmişəm, onlarla dərsdən sonra söhbət etmişəm, sinifdəki halından pərişan olmuşam, "O, dünənki uşağa oxşamır, yəqin ailədə problem yaranmışdır", - düşünmüşəm. Proqnozlarımda əsasən yanılmamışam. Beləcə "dünənki" uşaqlar böyüdülər, məzun oldular, həyatın isti və soyuq qucağına atıldılar. Üstündən yarım əsr keçibsə də, onları xoş ovqatla xatırlayıram: Cəfər Cəfərli, Nizami Oruc, Tahir Bağırov, Tofiq Hacıyev, Maarif Həşimov, Müslət Nəcəfov, Dürhəsən İmanov... Unutduqlarım da yox deyil, Dünyasını dəyişənlər də. Müslət Nəcəfov, Səxavət Qarayev, Əli Həsənov (Rəşidoğlu), İbrahim Həşimov, Zaman Əsgərli, Yengibar Məmmədov artıq aramızda yoxdur, amma ruhları ətrafımdadır, sanki məni qoruyurlar. İlahi, mən onların çiynində getməliydim, onları çiynimdə məzarstana yola salmalı oldum. İndi onlarla günlərimi, işlərimi yada salıram: sinifdə oturuşlarını - duruşlarını, təbəssümlərini, lövhə qarşısında cavablarını, qəribə suallarını görürəm, eşidirəm. Zənnimcə, Keçmişin - Dünənin ölmür, İnsan ölür cismani, ruhunu sevdiyi adamlara, yaxın dostlarına əmanət verir. Müslət Nəcəfovu, Yengibar Məmmədovu, Əli Həsənovu, İbrahim Həşimovu, Telman Muradovu, Zaman Əsgərlini necə unudum? Axı, bu kişilər mənimçün daima "uşaq" olaraq hafizəmdə yaşayacaqlar, onların ruhu mənimlə qəbrəcən gedəcəkdir!

İlahi, ruhlar görüşürmü? Bu istək faciə deyil, faciə odur ki, 50-40-30 il dostluq edib duz - çörək kəsdiyin o balaca, sısqa, xəstəhal ürəklər səndən haqsız, mübhəm üz döndərələr. Bax, bu dərdə dözmək lazım gəlir. Axı, bir zaman dərd - sərimi o dostlarımla bölüşdürürdüm, bəs indi? Üzünü kimə tutasan? Kiminlə kövrəlmiş hisslərini bölüşəsən? Məni başa düşər "dərdli" insanlar, dostluqda aldananlar, qürbətə düşənlər, özgə diyarda çarpayıda yatanlar, ağxalatlılardan ümid gözləyənlər...

Mən İstanbulda müalicə olunanda (2016) bir uşaq səsini belə, intizarında idim. Əl telefonum səslənəndə yadıma nağıllarda oxuduğum Zümrüd quşunu, diyardan-diyara soraq aparıb - gətirən Ağ göyərçinləri xatırlayırdım. Bir də mənimlə 50 ildən artıq dostluq etdiyim, çörək kəsdiyim, şeirlərini sevdiyim bir insanın səsinin intizarında idim. Bu hissimi daş parçası kimi ürəyimdə boğdum. Bu anlarımda telefonum ümidimi oyatdı: - Müəllim, - səsi kövrəlmişdi, darıxmışdı. - Evdən dedilər ki, İstanbuldasız. - Susdu, hıçqırdı. - Tez sağal, ustadımız. Yanına gəlmək istəyirəm, əllərindən öpmək istəyirəm, səsini eşitmək istəyirəm. Əbədi ustadımız, müəllimimizsən. Ən çətin günlərimizdə bizə həyan durmusuz. Həyatda sizin səsinizdi eşitdiyimiz. Sağal, ustad!

- Telefonda səs uğuldadı. O, şagirdim şair Cəfər Cəfərli idi, göz yaşlarını gizlətməyə çalışmışdı. Yetirmələrinin salamlarını çatdırmışdı.

Cəfər də, digər şagirdlərim də şəhərdən uzaq kənddə yaşayanlardan, dərs dediyim Kərimbəyli kənd orta məktəbinin (Salyan) keçmiş məzunları idi...

Soyuq çarpayıdan qalxdım, Qara dəniz görünürdü, gömgöy suları qayğısız axırdı, balıqçı qayıqları kibrit qutuları kimi yırğalanırdı. İlk dəfə cansız qayığa qibtə elədim, içindəki balıqçılar necə də azad idilər. Uzaqdan yelkənli gəmi üzü küləyə üzürdü. Dahi şair Lermontovun orta məktəbdə oxuduğum "Yelkən" şeirindən bəzi misraları yaddaşımda "oyatdım".

***Dalğalar dənizdə, göy dumanlarda***
***Ağarır tək-tənha, mavi bir yelkən...***
***Nə arar o qərib, uzaq diyarda,***
***Neçin ayrılmışdır öz vətənindən?***

***... Altında şəfəqli sular qaynayar,***
***Üstündə günəşdən zərli şüalar.***
***Fırtına axtarır üsyankar qayıq,***
***Sanki fırtınada asudəlik var!..***

Mən "Yelkən"i əzbərləyəndə yaşım, arzularım şairin yelkənindən fərqli idi, fırtınalardan, dalğalardan uzaq idi, səadət axtarmırdım, onu tapmışdım. Düşünürdüm ömrüm beləcə fırtınasız ötəcəkdir, varlığımda asudəlik yaşayacaqdır. Yox, belə deyilmiş. Həyatın - ömrün fırtınası irəlidə imş. Budur, dərman qoxulu otaqdan dənizə boylanıram, həkimin qəti sözünü eşitmək istəyirəm. Bir də Vətənimdə qalmış dostlarımın, doğmalarımın zənglərini... Hanı adlarını utandırmaq istəmədiyim cismani sağ, ruhu ölmüş "dostlarım"? Axı mən onlarla qardaş məhəbbətilə davranmışam, övladlarımın, övladlarının toyunda şadlanıblar, məni "sədaqətli dost" adlandırıb sağlığıma badələrini səsləndiriblər! Məgər səsdə saxtakarlıq olur? Sən demə, səs aldadırmış, ürəklə həmfikirmiş!

O gün - yelkənlərin açıldığı səhərisi telefonum susdu, hövsələli Mən narahat olmuşdum, özümdən uzaqlaşmışdım: nə üçün unuduldum, axı, məni yalnız doğmalarım yoxlayır, bəs həmişə sadiqlikdən danışan, dövrəmdə fəxrlə fırlanan, qayğılarını yoluna qoyduqlarım, sözü çiçəkləyən, özü isə XXI əsrdə solan dırnaqarası dost - həmkarlarım nə üçün susmuşlar? Onların "kişi sözləri" bura qədərmiş?! Bəlkə günahkar yaşımdır, itirdiyim vəzifəmdir. Düşünürəm və qənaətimi təsdiqləyirəm. İstanbula ayaq basmamışdan bir neçə il əvvəl də susmuşdular, qeybə çəkilmişdilər. Vurduğum zənglərə inandıqlarım üçün mən yox idim. Bəlkə onlar üçün bir qələm adamı kimi bu Dünyamdan inciyib getmişəm? Filan şair, Mən ölməmişəm, nəfəsim üstümdədir! Budurmu şeirlərində insanlıqdan, sədaqətdən, xatirələrdən yazan şairimiz? Həqiqətənmi, Sənin poeziyan saxta imiş?! Bir gün əllərin əsəndə məni xatırlayacaqsan: əlli illik "dost" dediyin bir adamı! Əzab çəkəcəksənmi? İnanmaq istəməzdim! Ona görə ki, ruhun ölmüşdür, amma hansısa hissdir poeziyanı qəlbimdə yaşadıram. Ona görə ki, Mənim ruhum - canım sağlamdır, nadürüst deyiləm! Hələ tez deyilmi? - sualı özümə vermişəm və cavabımı gizlətməmişəm, bu gün yazıram: - Siz ey nankor, çörəyi dizi üstə olan, on illərlə dostluq, yoldaşlıq edən saxta vücudlar, vəzifəlilərə və imkanlılara yalmananlar, dünəninizi nə tez unutdunuz? Bir də dünyaya gəlməyəcəksiz səhvlərinizi düzəldəsiz... Bəlkə küsmüsüz məndən? İncimisiz məndən? Buna mənəvi haqqınız çatmır! Küsəndə, inciyəndə, üz döndərəndə də kişi xarakteri ortada olur, üz-üzə oturub duruldursan gileyi və yolları birlikdə ayırırsan: sola və sağa, şimala və cənuba, işığa və kölgəyə! Bir-birinə zidd məkanları seçəndə keçmişin xatirələrini ayaqların altına alıb tapdalama, barı! Bir tikə çörəyi yarıya, bir manatı ikiyə bölən istəmirdi başından bir tük əksik olsun.

Darıxdım, otaqda sıxıldım. Əl telefonum işıqlandı, bədənim canlandı. Lənkəran Dövlət Universitetindən xalam oğlu, riyaziyyatçı - alim Nahid Paşayevdi. Səsi yamanca kövrəlmişdi. Mənim xətrimə nikbin danışırdı:

- Alı, sənə şair tələbən Elşadın bir şeirini yola salıram İstanbula! Oxuyarsan, amma... - Susdu, handan dedi. - Məndən xahiş elədi ki, onun halını soruşmadığım üçün inciyib, haqqı çatır, bağışlasın.

- Mən günahkarı əfv etməyə alışmışam, - dedim. Və pəncərənin bir layını açdım. Saralan yarpaqlar narın yağışdan islanmışdı, 18-20 yaşlı tələbə Elşad Səfərli gözlərim önündə canlandı: "İlahi, qəribliyi tabsız insanlara qismət eləmə - pıçıldadım. - Doğrudanmı o, ustadını "itirdiyi" üçün darıxmışdı, "Küsü" adlandırmışdı şeirini.



Allahverdi Eminov

Yəqin ehtiyatsız söz işlətmişəm,
Günahıma görə küsmə, ay ustad!
Bircə sənə olub yolum birbaşa,
Ya da doğru kəsə, kəsmə, ay ustad!
Niyyətindən əl etmə əl uzadanı,
Onun ürəyindən silmə adını,
Olub ki, azdırıb nəsə adamı
Azanın əlini kəsmə, ay ustad!

Az qalıb bu yumru binadan gedim,
Harasa Allahın adından gedim,

Atasız, qardaşsız dünyadan gedim,
Kimlərin çiynində bəs mən, ay ustad!

Əlim titrəyirdi, otağa sığışmırdım, qələm barmaqlarım arasında titrəyirdi. Yalnız günün tarixini yazmağa iqtidarım çatdı: 12.12.2016. Yazı masamda bir neçə avtoqraflı kitabların içindən Elşadın "Mənə dəniz bağışladın" şeirlər kitabını götürdüm, yazdığı avtoqrafı oxudum: "Görkəmli ədəbiyyatşünas-alim, tənqidçi, istedadlı yazıçı və mənim şeir - sənət ustadım çox hörmətli Allahverdi müəllimə böyük ehtiramla.. 11.07.2019". Oxudum, hisslərimi bir də oyatdım və "Mənə dəniz bağışladın, şair" adlı geniş həcmli bir resenziya yazıb "Hürriyyət" qəzetinin iki sayında çap olundu: avqust, 2021. Məlumat da vermədim, axı iki ildir ünvanıma telefonu qapanmışdır. Yadına düşmürəm, ancaq keçmiş günlərimdən təsəlli alıram. Bu gün kimdir vəzifəsini itirmişləri axtaran? Soraq tutan? Qapını döyən? Axı, həmişə ürəyim onların üzünə açıq idi, eləcə də meşin üzlü qapım.

Bu sətirləri yazanda böyük ədib Volter Skotun kəlamlarını xatırladım: "Əzizim, yaxşı insan ol, fəzilətli insan ol! Yatağa düşdüyün zaman bundan artıq heç bir şey sənə təsəlli verməyəcəkdir". Bu fikirdən təsəlli də aldım: demək, əsrlər uzunu yaxşı insanların işığında kölgəyə bələnmiş adamlar addımlayırmış... Amma xəbərimiz olmayıbmış. İndi gec deyilmi?

Aristotelin qənaətidir ki, İnsan doğulanda ağlayır, amma ətrafındakılar sevincdən gülür. Filosof kəlamın fəlsəfəsini açmayıb, gələcək nəslin öhdəsinə buraxıb və yanılmayıb. İnsanlarla ünsiyyətdə, mənəvi-sosial münasibətdə olarkən qənaətin çətinləşir: doğulanda ağlayanlar gələcək "dostların"dır, sevincindən gülənlərsə düşmənlərindir. Deməli, hər iki tərəfin canında insani və heyvani ruh gizlənmişdir. Səndən, işi keçəndə insaniləşir, sən dəbdən (vəzifədən) düşəndə heyvaniləşir. Bu cür dilemmalarla üzləşən antik folosof Esxil əbəs üzünü yaramaz dostlarına tutub deməmişdir: "Məni tutub saxlayın, sizlərə lazım olaram!" Dahi hikmətçidə ürək genişliyinə bax!

Bir təsəllimi oxucularımla bölüşmək istərdim: itirilməyən, daima hissiyyatında yaşayan, arabir yuxularında səninlə danışan uşaqlıq və gənclik dostların da var, vaxtsız məzarstanda uyuyurlar, onları çiyinlərində aparmısan, torpağa tapşırmısan. Bəli, çiyinlərimdə yol gedib, göz yaşlarımla qəbrini suvarmışam. Bunlar Əkbər, Bahadır, Sahib... idilər. Və bir gün onların doğulduqları torpağa, dəfn olduqları məzarstana ziyarətlərinə vardım. İlk misralarımı (mən şair deyiləm) pıçıldadım:

Gəzib dolandım məzarstanı,
Qəbirlərarası bitmişdi otlar.
Hansı ki, bir zaman bu uyumuşlar
Sakitcə ötmüşdü elə bu yerdən.
Bir məzar axtarıb tapmaq istədim,
Mənim uşaqlığım, cavanlığım da,
Sevincim, kədərim bəlliydi ona...
Beləcə uyuyur: sakit, mükəddər,
Nə bilim, həyatın diqtəsidirmi?
Yoxsa ki, taleyin qismətidirmi?
Əyilib diz çökdüm bir uşaq kimi,
Qayıtdım cocuqluq illərimə mən.
Məzardan səs gəldi: onun səsiydi:
-Dostunu nə yaxşı bu gün yoxladın,
Ötən gecə sənlə yuxuda idim,
Yamanca dəyişmiş, sınıxmış idin.
Yaşarmı uşaqlar, varmı o yerlər,
Ya da əsir düşüb, - belə deyirlər.
Qalmışam ruhumla tənha, kimsəsiz,
Bircə anam üçün yaman darıxdım,
Kaş onu görəydim, barı, yuxumda -
Öpəydim üzündən, onun gözündən,
Doyunca əməydim ana südündən.
Sonra qayıdıban "can otağıma" -
Əbədi yerimdi alışdım ona,
Məndən salam söylə sağ olanlara...
...Qəbirlərarası bitmişdi otlar,
Burda yatanlara rəhmət dilədim...
Həyatın sonumu? Bəlkə də yalan?
Amma həqiqətdi, niyə də danım?
Bir gün doğulmusan ana bətndən,
Bir gün də köçərsən, yerin boş qalar.
Ruhumla beləcə oldu söhbətim -
Bu da sənin, mənim son aqibətim.

Axı kainatda "son" yoxdur, "yerdəyişmə" mövcuddur, bəlkə bu proqnozu filosoflar ruhdan düşməmək üçün vermişlər. Bəlkə də. Bəlkə də Dövr, Zaman üçün söyləmişlər ki, nə səbəbdən insanların xasiyyətini alt - üst etdin, özgələşdirdin, yadlaşdırdın, onları başlı-başına buraxdın, bəs hansı məkana! Yadıma İmam Sadiqin müdrik sözləri düşdü: "Zəmanə korlanmış və qardaşlar dəyişmişlər. Buna görə də qəlb rahatlığını tənhalıqda tapdım".